# Maraqlı sərgi

**Qazax Dövlət Rəsm Qalereyası "Barakko" üslubunda dünya standartlarına uyğun tam və əsaslı, yüksək keyfiyyətlə təmir edilmiş, müasir avadanlıqlarla təmin olunmuşdur.**

**İndi o şəhərin yaraşıqlı memarlıq nümunələrindən birinə çevrilmişdir. Yerli rəssamların, qalereya işçilərinin normal fəaliyyət göstərmələri üçün burada əlverişli şərait yaradılmışdır.**

Bu bir növ Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mədəniyyətimizə, incəsənətimizə, milli-mənəvi dəyərlərimizə göstərdiyi diqqət və qayğının nəticəsidir. Cənab Prezident 24 sentyabr 2008-ci ildə Qazax rayonuna səfəri zamanı qalereyanın açılışında iştirak etmiş, görülmüş işlərlə yaxından tanış olmuşdur.

Rəsm Qalereyası geniş ekspozisiya zalına və zəngin eksponatlara malikdir. Burada Azərbaycanın tanınmış rəssamlarının və yerli fırça ustalarının əsərləri toplanmışdır.

Rəsm Qalereyasında tez-tez maraqlı görüşlər, yaddaqalan tədbirlər keçirilir. Bu yaxınlarda Qazax Dövlət Rəsm Qalereyasında Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə "Paytaxtdan bölgələrə" adlı sərgilər silsiləsi keçirilmişdir. Həmin sərgidə Azərbaycanın tanınmış rəssamlarının əsərləri nümayiş etdirilmişdir.

Qazax Dövlət Rəsm Qalereyasının direktoru Münəvvər Xəlilova bizimlə söhbət zamanı bildirdi ki, "Paytaxtdan bölgələrə" adlı sərgilər silsiləsi bir həftə davam etmiş, sərgidə Azərbaycan rəssamlarının müxtəlif mövzuda çəkdikləri rəsm əsərləri nümayiş etdirilmişdir. Həftə ərzində Qazax Dövlət Rəsm Qalereyasında nümayiş etdirilən rəsm əsərlərinə 2000 nəfərdən çox tamaşaçı baxmış, sərgi onların hər birində xoş təəssürat yaratmışdır.

**Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rauf Hüseynov da Qalereyada olmuş, sərgidə nümayiş etdirilən rəsm əsərlərinə baxmış, belə bir tədbirin Qazaxda keçirilməsini təqdirəlayiq saymışdır.**

**K. ABDULLAOĞLU**